*Təqvim yada salır*

**Bugünlərdə Azərbaycanın Əməkdar mühəndisi, ötən əsrin 90-cı illərində Cənubi Qafqazda ən iri tikinti qurumu olan “Azmənzilsənayetikintitəmir” İstehsalat Birliyinə rəhbərlik etmiş xeyriyyəçi Akif Zeynalovun 80 yaşı tamam oldu.**



# Ulu öndərin təşəkkürünü qazanmış inşaatçı

Akif Həsən oğlu Zeynalov 1942-ci ildə Füzuli şəhərində dünyaya gəlib. 1959-cu ildə Füzuli şəhər orta məktəbini əla qiymətlərlə bitirib, elə həmin il də Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna daxil olub. Dördüncü kursun sonunda diplom təcrübəsini Sumqayıt Superfosfat Zavodunda keçən Akif çilingər kimi işə götürülüb. Qısa müddətdə işgüzarlığı və səmimiliyi ilə çalışdığı sex kollektivinin rəğbətini qazanıb. Yay tətilinə də getməyib, zavodda işləyib.

Dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadənin tələbəsi kimi diplom işi yüksək qiymətləndirib. Ali məktəbdə saxlanılsa da, öz xahişi ilə istehsalata gedib. Bakıda iş üçün müraciət etdiyi Qaraşəhərdəki Kimya Birliyinin rəhbərliyi gənc mütəxəssisi tikilməkdə olan Sumqayıt kimya kombinatına göndərib. 22 yaşlı Akif 1965-ci ildə burada növbə mexaniki vəzifəsinə işə götürlüb. Bir neçə il keçib, boş bir düzənlikdə Akifin də bilavasitə iştirakı ilə böyük bir müəssisə – ölkə üçün mühüm kimyəvi məhsullar istehsal edən nəhəng Kimya Kombinatı yaradılıb.

Gənc kimyaçı-mühəndis cəmi 7 ilə sıravi mühəndislikdən böyük bir kimya müəssisəsinin baş mexaniki və İstehsalat Birliyinin baş direktoru vəzifəsinə qədər yüksəlib. İstedadı, işgüzarlığı, təşkilatçılıq bacarığı nəzərə alınaraq, Akif Zeynalov bir-neçə il sonra “Sumqayıtkauçuktəmirtikinti” Trestinin rəisi təyin olunub. Bütün həyatını Sumqayıtın neft-kimya sənayesi ilə bağlayan Akif Zeynalov sonralar öz təşəbbüsü və iradəsi ilə respublikanın ən iri təmir-tikinti müəssisəsini – “Azmənzilsənayetikintitəmir” İstehsalat Birliyini yaradıb.

Dağlıq Qarabağ münaqişəsi şiddətləndikcə Akif müəllim hələ işğal edilməmiş, lakin çətin, ağır günlərini yaşayan sərhəd rayonlarına hər cür maddi-texniki yardım göstərməyə başlayıb. O, əhalini işlə təmin etmək məqsədilə Laçında, Füzulidə, Qubadlıda, Cəbrayılda birliyin 50-dən artıq təmir-tikinti idarəsini yaradaraq, 1200-dən çox adamı işlə, yüzlərlə həmvətənimizi sığınacaqla təmin edib. 1990-cı ilin sonlarından sərhəd rayonlarında və Azərbaycanın digər bölgələrində 130-dan çox tikinti idarələri olan 11 Təmir-Tikinti Tresti yaratmağa nail olub. Həmin idarələrdə o zaman 5 mindən artıq işçi çalışırdı.

Silahlı qarşıdurmaların, döyüşlərin gücləndiyi dövrlərdə Akif Zeynalov dəfələrlə sərhəd rayonlarında olub, Şuşaya, Laçına, Ağdama, Füzuliyə, Xocalıya silah-sursat, mal-material, ərzaq çatdırıb. İstehsalat Birliyinin direktoru kimi Milli Ordumuzun yaradılmasına, onun silah-sursatla təmin edilməsinə də kömək göstərib. Böhran keçirən bir çox müəssisə və büdcə təşkilatı da yardım üçün Akif Zeynalova üz tutub. O, hamını hörmətlə qarşılayıb, heç kəsi naümid qaytarmayıb, imkanını əsirgəməyib.

Ulu öndər Heydər Əliyev 1991-ci ilin çətin və ağır blokada dövründə Naxçıvana göstərdiyi davamlı köməyə görə Naxçıvan Muxtar Respublikasının Milli Məclisinin sədri kimi Akif Zeynalova məktub göndərərək, ona xüsusi təşəkkürünü bildirib: “Hörmətli Akif bəy! Mən sizi şəxsən tanımıram. Ancaq bu çətin günlərdə Naxçıvana tikinti materialları və yanacaqla, maşın-mexanizmlə göstərdiyiniz daimi köməyə görə sizə təşəkkürümü bildirirəm. Burada inşa etmək istədiyiniz kərpic zavodu isə bu gün Naxçıvana daha çox gərəkdir. Hörmətlə: Heydər Əliyev. Avqust, 1991-ci il”.

1991–1992-ci illərdə o vaxtkı Azərbaycan rəhbərliyinin blokadada qalmış muxtar respublikaya sahib çıxmış Heydər Əliyevə qarşı qadağalar qoyduğu, Sumqayıt “Azmənzilsənayetikintitəmir” İstehsalat Birliyinin baş direktoru Akif Zeynalovun təşəbbüsü ilə Naxçıvanda 7 idarədən ibarət böyük bir Təmir-Tikinti Tresti yaradılmışdı. Naxçıvana İran vasitəsi tikinti materialları göndərilmişdi. Bu elə bir dövr idi ki, respublika tabeliyində olan heç bir müəssisə Naxçıvanda fəaliyyət göstərə bilmirdi. “Azmənzilsənayetikintitəmir” İB isə o vaxt Moskvaya tabe olduğundan bu qurum Naxçıvanda fəaliyyətini davam etdirirdi.

Akif Zeynalov nüfuzlu müəssisə rəhbəri olmaqla yanaşı ədəbi yaradıcılıqla da məşğul olub, 10-a qədər maraqlı pyes yazıb.

İstedadlı yazıçı-dramaturq kimi onun 5 pyesi respublikanın bir-neçə teatrında tamaşaya qoyulub. Akif müəllimin ssenarisi əsasında Sumqayıtla bağlı aktuallığı və dramatikliyi ilə tamaşaçıların böyük marağına, diqqətinə səbəb olmuş “Mənim ağ şəhərim” filmi çəkilib.

Bu gün tanınmış kimyaçı-inşaatçı və dramaturq Akif Həsənoğlunun ömrünün səkkizinci onilliyinin tamam olmasını onu taniyan çox sayda insan sayğı-sevgi ilə qarşılayır. Xalqa, Vətənə sədaqətlə xidmət etmiş yubilyarı ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, bu gün də böyük həvəs və ilhamla davam etdirdiyi yaradıcılığında yeni uğurlar arzu edirik!

**Rəhman ORXAN,**
**Əməkdar jurnalist**